# MÜASİR VERGİ XİDMƏTİ

**A.A.ZAMANOVA**
*Bakı Dövlət Universiteti*

Respublikamızın müstəqil vergi xidmətinin yeni standartlar əsasında qurulması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin rəhbərliyi altında vergi siyasətinin konsepsiyasının əsas konturları müəyyənləşdirilmiş və bu sahədə radikal islahatların aparılmasına başlanılmışdı. Bu konsepsiyaya uyğun olaraq müstəqil Azərbaycan Respublikasının vergi sisteminin təşəkkül prosesi baş tutmuşdur. 1995-ci ildə aparılmağa başlanmış iqtisadi islahatlar qısa zaman kəsiyində xalq təsərrüfatının bütün sahələrində köklü dəyişikliklərə gətirmişdi. Bu da, öz növbəsində, irimiqyaslı islahatlara yönələn iqtisadi siyasətin ayrılmaz tərkib hissəsi olan vergi siyasətində də köklu dəyişikliklərin aparılmasını, vergi sisteminin müasir standartlar əsasında formalaşdırılmasını bir zərurət kimi ortaya qoymuşdu. Ümummilli liderin vergi sistemində apardığı islahatların mühüm istiqamətlərindən biri və demək olar ki, ən başlıcası qanunvericilik bazasının qurulması olmuşdur. Vergiqoyma sahəsi uzun müddət müxtəlif dövrlərdə qəbul edilmiş qanunlar və normativ hüquqi aktlar ilə tənzimlənmişdir. Lakin həmin dövrdə ölkənin inkişaf perspektivləri və işgüzarlığın fəal şəkildə artması, qanunvericilik bazasının təkmilləşdirilməsi zərurətə çevrilmişdi.

Vergiqoyma sahəsində mükəmməl qanunvericilik bazasının yaradılması istiqamətində əsaslı işlər 1998-ci ildən başlanmışdı. İki illik gərgin səylərin nəticəsi olaraq 2001-ci il yanvarın 1-dən ölkədə vahid vergi qanunvericiliyi – Vergi məcəlləsi qüvvəyə mindi. Bu sənədin sahibkarlığın inkişafı və ölkədə investisiya mühitinin daha da yaxşılaşdırılmasındakı rolu əvəzedilməzdir. Təkcə onu qeyd etmək kifayətdir ki, respublikada tətbiq olunan 13 vergi növü əvəzinə alternativ olaraq sadələşdirilmiş sistem üzrə vergitutma təsbit olunmuşdur. Bundan başqa, əksər vergilər (məsələn, ƏDV, mənfəət vergisi, gəlir vergisi) üzrə dərəcələr aşağı salınmış, aksizə cəlb olunan malların siyahısı minimuma endirilmişdi.

1999-cu ilin ortalarına qədər olan vəziyyətə nəzər yetirsək, görərik ki, həmin vaxt qanunvericiliyə əsasən hər bir vergi ödəyicisi ildə bir dəfədən az olmayaraq mütləq yoxlanılmalı idi. Təkrar yoxlamaların sayı və yoxlama aparılma maddələri məhdudlaşdırılmamışdı, bir vergi ödəyicisi eyni zamanda həm Baş Dövlət Vergi Müfəttişliyi, Bakı Şəhər Dövlət Vergi Müfəttişliyi və müvafiq rayonlar üzrə Dövlət vergi müfəttişlikləri tərəfindən yoxlanıla bilərdi. Vergi orqanları 18 halda maliyyə sanksiyası tətbiq edirdilər ki, onun da həddi ödənilməli vergi məbləginin 50-60 faizi arasında idi.

Vergi Məcəlləsinin qəbul edilməsi vergitutma sahəsində təkcə vahid bir qanunvericilik bazasını yaratmadı, həm də yuxarıda sadalanan

sahibkarlığın inkişafına mane olan halların aradan qaldırılmasına imkan verdi. Məcəllənin qüvvəyə minməsilə əvvəllər vergi qanunvericiliyi sahəsində mövcud olan müxtəlif vergi növləri üzrə təlimatlar sistemi aradan qaldırıldı və vergitutmanın vahid sənəd əsasında aparılmasına əlverişli şərait yaradıldı.

Birmənalı olaraq söyləmək olar ki, Vergi Məcəlləsinin qəbulu ölkənin həyatında tarixi bir hadisə olaraq, vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində atılmış ən başlıca addım oldu.

Vergi Məcəlləsinin qəbulu vergi sahəsində sonrakı illərdə aparılan islahatların genişləndirilməsi üçün də təkan rolunu oynadı. Vergi siyasətinin təkcə büdcə gəlirlərini təmin etməyi nəzərdə tutan fiksal məqsədlərə deyil, həm də ölkədə iqtisadi inkişafı sürətləndirmək, optimal vergitutma mexanizmi ilə sahibkarlığın inkişafını stimullaşdırmaq kimi məqsədlərə xidmət etməsi üçün vergi orqanları qarşısında mühüm vəzifələr qoyuldu.

Ötən müddət ərzində bu günə qədər Məcəlləyə xeyli əlavə və dəyişikliklər edilmiş, ölkədə vergi yükünün aşağı salınması siyasəti davam etdirilmiş, vergilərin sayı və dərəcələri azaldılmış, vergi güzəştləri optimal hədlərədək endirilmiş, eyni zamanda iqtisadiyyatın ayrı-ayrı sahələrinin (kənd təsərrüfatı, bank sektoru, maliyyə lizinqi) inkişafını təmin etmək məqsədilə güzəştlər sistemindən səmərəli şəkildə istifadə edilmişdir.

Vergi xidmətində aparılan islahatların mühüm bir qolunu da vergi inzibatçılığının təkmilləşdirilməsi məsələləri təşkil etmişdir.

Vergi qanunvericiliyində aparılan fundamental dəyişikliklər vergi xidmətinin inzibati strukturunda da adekvat islahatların həyata keçirilməsini zəruri etmişdi. Bu baxımdan həmin dövrdə vergi orqanlarının inzibati-təşkilati strukturunun yenidən qurulması qarşısında duran əsas məsələlərdən idi.

Həmin dövrdə Baş Dövlət Vergi Müfəttişliyində ayrı-ayrı vergi növləri üzrə müxtəlif idarələr fəaliyyət göstərirdi. Bu idarələr konkret bir vergi növü üzrə həm qanunvericiliyin tətbiqi, həm bəyannamələrin yoxlanılması, həm borcların alınması, həm də səyyar vergi yoxlamalarının aparılması üzrə səlahiyyətli idilər. Vergi ödəyicilərinin haqlı narazılığına səbəb olan bu yoxlamalar müasir dövrün tələblərinə cavab vermirdi.

1999-cu ildən başlayaraq, vergi orqanlarının strukturunun müasirləşdirilməsinə dair hazırlıq işlərinə başlanıldı. Müasir vergi sisteminin formalaşdırılması sahəsində növbəti addım Vergilər Nazirliyinin yaradılması oldu. Müdrik siyasətçi Heydər Əliyev bu sahədə də uzaqgörən addım ataraq 11 fevral 2000-ci il tarixli 281 nömrəli fərmanı ilə Baş Dövlət Vergi Müfəttişliyinin bazasında dövlət vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edəcək və bu sahədə dövlət nəzarətini həyata keçirəcək mərkəzi icra hakimiyyəti orqanının – Azərbaycan Respublikası Vergilər Nazirliyinin yaradılması barədə qərar qəbul etdi. Vergilər Nazirliyinin yaradılması, onun həm səlahiyyətlərinin, həm də ölkə iqtisadiyyatının inkişafında rolunun müəyyənləşdirilməsi Heydər Əliyevin bu sahəyə göstərdiyi böyük diqqətin bariz nümunəsi idi.

Vergilər Nazirliyi yaradıldıqdan sonra vergi orqanlarının strukturunun müasirləşdirilməsinə dair hazırlıq işlərinə başlanılmışdı.

Vahid və çevik bir strukturun yaradılması məqsədilə qabaqcıl dünya təcrübəsi araşdırılmış, müxtəlif idarəetmə modelləri təhlil edilmiş və yekunda vergi orqanlarının funksional əsasda fəaliyyət göstərən strukturunun tətbiqinə üstünlük verilmişdi.

Yaradılan yeni struktur buna qədər fəaliyyət göstərən struktura xas olmayan sistemlilik, çeviklik, operativlik, koordinasiyaolunma və güclü təşkilati-idarəetmə mexanizmi kimi müsbət keyfiyyətləri özündə birləşdirmişdi.

Adekvat islahatlar Vergilər Nazirliyinin mərkəzi aparatında da aparılmışdı. Bu struktur bazar münasibətləri şəraitində ümummilli liderimiz Heydər Əliyevin Vergi orqanlarının qarşısında qoyduğu vəzifələrin daha ciddi yerinə yetirilməsinə və çevik vergi siyasətinin həyata keçirilməsinə xidmət etməli idi.

Beləliklə, vergi sistemində yaradılan yeni struktur əvvəlki strukturdan fərqli olaraq, vergi siyasətinin daha uğurla həyata keçirilməsinə və vergilər sahəsində güclü nəzarət sisteminin tətbiqinə imkan verən mexanizm kimi müsbət keyfiyyətləri özündə birləşdirdi.

Təsadüfi deyil ki, struktur islahatlarının aparıldığı il də daxil olmaqla, indiyədək vergi daxilolmaları üzrə büdcə öhdəliklərində kəsir və proqnozların yerinə yetirilməməsi halları olmamışdır.

Eyni zamanda vergi inzibatçılığının təkmilləşdirilməsi məsələlərinə xüsusi önəm verilmişdir. Ötən müddət ərzində vergi orqanları təkcə struktur baxımdan yenidən qurulmamış, həmçinin vergi xidmətində yeni iş proseslərinin tətbiq edilməsi, vergi ödəyiciləri ilə vergi xidməti əməkdaşları arasında təmassız münasibətlərin qurulması, vergi bəyannamələrinin poçtla və elektron üsulla qəbul edilməsi, bütün ödəmələrin banklar vasitəsilə həyata keçirilməsinə başlanması, vergi xidmətinin yaradılması bütövlükdə vergi inzibatçılığının əhəmiyyətli şəkildə yaxşılaşmasına və şəffaflığın təmin edilməsinə şərait yaratmışdır.

Ulu öndərin tövsiyələrini əsas götürərək Vergilər Nazirliyi tərəfindən vergi maarifləndirilməsinin əsası qoyulmuşdur. Təhsilin bütün pillələrində vergi sistemi ilə bağlı dərslərin tədrisi təşkil olunmuş, vergi orqanları tərəfindən vergi təbliğatının genişləndirilməsi işi gücləndirilmiş, Vergilər Nazirliyinin tədris Mərkəzi fəaliyyətə başlamışdır.

Heydər Əliyevin Azərbaycanın vergi xidmətinin formalaşmasında və yenidən qurulmasında xidmətləri danılmazdır. Bütövlükdə vergi xidmətində aparılan islahatların məqsədləri, strategiyası və əsas istiqamətləri məhz onun rəhbərliyi altında hazırlanmış və həyata keçirilmişdir.

Son illər səmərəli vergi sisteminin formalaşdırılması, onun qanunvericilik bazasının təkmilləşdirilməsi, vergi orqanları əməkdaşlarının peşəkarlıq səviyyəsinin artırılması, ölkədə əlverişli vergi mühitinin və vergi mədəniyyətinin yaradılması sahəsində də əhəmiyyətli işlər görülmüşdür. Ölkə iqtisadiyyatının dinamik inkişafı Azərbaycan Respublikasında sivil vergi xidmətinin formalaşması istiqamətində həyata keçirilən işlərin davam etdirilməsini tələb edir.

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli sərəncamı ilə «Azərbaycan Respublikasında inzibatçılığın təkmilləşdirilməsi Dövlət Proqramı» təsdiq olunmuşdur. Bu Dövlət Proqramı vergi sahəsində aparılacaq islahatların növbəti mərhələsini təşkil edirdi.

Dövlət Proqramında vergi inzibatçılığının aşağıdakı istiqamətlərdə inkişafı məqsədəuyğun hesab edilmişdir:

- vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi və vergi ödəyicilərinin hüquqlarının etibarlı qorunmasının təmin edilməsi;
- vergi dələduzluğu və vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi, vergi inzibatçılığının az riskli sistem kimi formalaşması;
- vergilərin məcburi ödənilməsi sisteminin təkmilləşdirilməsi və vergi borclarının yaranmasının qarşısının alınması;
- vergi orqanlarında idarəetmə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması;
- müasir tələblərə cavab verən kompüter informasiya sisteminin yaradılması.

Dövlət Proqramında vergi inzibatçılığının inkişafının zəruri olan istiqamətlərindən biri kimi müvafiq kompüter şəbəkəsinin yaradılması göstərilir. Bu da təbiidir – hazırki dövrdə bəşəriyyəti müasir texnologiyalarsız təsəvvür etmək qeyri-mümkündür. Sözsüz ki, belə bir halda Vergilər Nazirliyi bu texniki vasitədən maksimal həddə faydalanmağı, onun tətbiqi ilə həm vergi əməkdaşlarının işinin asanlaşdırılmasını, həm də vergi ödəyicilərinin rahatçılığının təmin edilməsini nəzərdən qaçıra bilməzdi. Vergi administrasiyasının rəhbərliyi müasir texnologiyaların əhəmiyyətini nəzərə almaqla sağlam təşəbbüs göstərərək Dövlət Proqramı qəbul edilənədək vahid kompüter şəbəkəsinin tətbiqi istiqamətində artıq müəyyən tədqiqatlar aparmışdır. Nəticədə xarici mütəxəssislərin köməyindən geniş istifadə olunaraq zəruri texniki işlər görülmüş və Vergilər Nazirliyində Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) adlı çoxfunksiyalı bir sistemin təməli qoyulmuşdur. Artıq 2006-cı ilin əvvəlindən kargüzarlıq əməliyyatları yalnız AVİS-lə aparılır, bir vergi orqanından digər vergi orqanına sənəd bu proqram vasitəsilə bir neçə dəqiqə ərzində daxil olur, nəticədə həm vaxta qənaət edilir, həm də lazım olan sənədlərin tez bir zamanda və vaxtında icra olunmasına imkan yaranır. Bu isə, öz növbəsində, insan resurslarının qənaət edilməsinə imkan yaradır.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi haqqında 16.06.2007-ci il Qanunu.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi haqqında 15.12.2007-ci il Qanunu.
3. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi haqqında 21.10.2005-ci il Qanunu.
4. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi haqqında 24.06.2005-ci il Qanunu.
5. «Vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında» Konvensiyanın təsdiq edilməsi barədə.
6. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi haqqında 28.11.2003-cü il Qanunu.
7. Налоговое право: Учебник / Под ред.С.Г.Пепеляева. М.: Юристь, 2004, 591 с.
8. Пепеляев С.Г. Налоги: реформы и практика. М.: Статут, 2005, 287 с.


**СОВРЕМЕННАЯ НАЛОГОВАЯ УСЛУГА**

**А.А.ЗАМАНОВА**

**РЕЗЮМЕ**

В связи со сложившимися в суверенном Азербайджане историческими условиями настоятельно требовалось совершенствовать налоговую политику, налоговое законодательство. Известно, что, согласно налоговому законодательству, до середины 1999 года по крайней мере один раз в год осуществлялась проверка каждого из налогоплательщиков.

Одобрение Налогового Кодекса способствовало улучшению налогового сбора и его приведению в соответствие международным налоговым стандартам.

Важные шаги были предприняты относительно модернизации налоговой структуры. Заметной вехой в этом направлении стало образование Министерства Налогов, что способствовало более успешной реализации налоговой политики.

**MODERN TAX SERVIS**

**A.A.ZAMANOVA**

**SUMMARY**

Taking into account historical conditions in independent Azerbaijan insistent demand of improving tax policy, tax legislature was necessary. Till the middle of 1999 leqislation was enforced to check each of tax-payers at least once a year.

Approval of the tax code brought to improvement of tax collecting and bringing it to the level of international tax standards.

Important steps were made in order to modernize fax structure. The important event in this direction was the arrangement of the Ministry of Taxes that facililated more realization of fax policy successful.